AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.com
www.olimpnews.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 9 (1511), 15 mart 2022-ci il

Qəzet 2001-ci ildən çıxır.

## Paytaxtımız akrobatika gimnastikası üzrə 28-ci dünya çempionatına uğurla ev sahibliyi etdi



Martın 13-də Bakıda akrobatika gimnastikası üzrə 28-ci dünya çempionatının təntənəli bağlanış mərasimi keçirilib. Mərasimdə əvvəlcə iştirakçı ölkələrin paradı olub. Bağlanış mərasimində çıxış edən Beynəlxalq Gimnastika Federasiyasının (FIG) prezidenti Morinari Vatanabe qlobal pandemiyaya və sülh böhranına baxmayaraq, yarışda iştirak edən idmançılara və rəsmilərə təşəkkürünü bildirib.

*(ardı 2-ci səhifədə)*

## Sərbəst güləş yığmamızdan tarixi nəticə

Bolqarıstanın Plovdiv şəhərində keçirilən 23 yaşadək güləşçilər arasında Avropa çempionatına yekun vurulub. İlin ilk ciddi sınağında Azərbaycan pəhləvanları da qüvvələrini sınayıblar. Komandalarımız qitə çempionatında güləşin hər üç növündə təmsil olunub. Yarış pəhləvanlarımız üçün uğurlu olub. Ən uğurlu nəticəni isə sərbəst güləşçilərimiz əldə ediblər. Belə ki, yarışa məşqçilər Arif Abdullayev, Cəbrayıl Həsənov və Rövşən Hacıyevin rəhbərliyi altında yollanan yığmamız 4 qızıl, 3 gümüş medal qazanaraq tarixi uğura imza atıb. Sərbəst güləş üzrə komandamız bu nəticə ilə Avropa çempionu adını qazanıb.

*(ardı 2-ci səhifədə)*

## Anons

*Qış İdman Növləri Federasiyasının prezidenti olimpiyaçılarımızla görüşüb* — Səh. 3

Novruz mərasimlərində milli xalq oyunları — Səh. 4

*Aşihara: güc, texnika və zehnin vəhdəti* — Səh. 5



Foto-obyektivin gözündən yayınmayan, yaddaşlara həkk olan məqamlar — Səh. 6

*Azərbaycan Premyer Liqası: "Neftçi"dən əzmkar qələbə* — Səh. 7



## Milli Olimpiya Komitəsinin "Olimpiya Gündəliyi-2020" Komissiyasının iclası olub

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) "Olimpiya Gündəliyi-2020" Komissiyasının iclası keçirilib.

Komitənin baş katibi, komissiyanın sədri Azər Əliyev iclasda çıxış edərək sonuncu iclasdan sonra təşkil olunan idman tədbirləri və keçirilən görüşlər barədə danışıb.

"İdman hamı üçün" televiziya proqramının 2022-ci il mövsümü ərzində çəkilən buraxılışlarına dair ümumi məlumatdan sonra komissiya üzvləri "Space TV"nin efirində nümayiş olunan verilişin yeni mövsümünün ilk buraxılışını izləyiblər. Kanalın direktoru Müşfiq Hətəmovun da iştirak etdiyi ümumi müzakirə zamanı yeni təkliflər səsləndirilib.

Daha sonra "Olimpiya Gündəliyi-2020" Komissiyasının yeni televiziya layihəsinin anonsunu izləyən komissiya üzvləri "Qadın idmanda" verilişinin aparıcısı, mövzusu və qonaqları haqda fikir mübadiləsi aparıblar.

"Olimpiya Gündəliyi-2020" komissiyası 2014-cü ildə qəbul olunub və ötən il yenilənmiş strateji sənədin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə xidmət edir.



## Olimpizm

### Çin Pekin-2022 Qış Paralimpiya Oyunlarının qalibi oldu

Çinin paytaxtı Pekində təşkil olunan XIII Qış Paralimpiya Oyunlarına yekun vurulub. 46 ölkədən təxminən 564 paralimpiyaçının mübarizə apardığı budəfəki yarış ölkəmiz üçün də əlamətdar olub. Belə ki, komandamız tarixində ilk dəfə olaraq Qış Paralimpiya Oyunlarında təmsil olunmaq hüququ əldə edib. Azərbaycanla yanaşı, İsrail və Puerto Riko ölkələrinin komandaları da Qış Paralimpiadasında təmsil olunub. Təəssüf ki, idmançımız Pekində çıxış edə bilməyib. Buna səbəb Azərbaycan idmançısı Mehman Ramazanzadənin zədələnməsi olub. M.Ramazanzadə isinmə hərəkətlərində xəsarət aldığı üçün yarışlardan kənarda qalıb. Üzündən və çiynindən zədə alan idmançı meydanı xərəkdə tərk edib.

Qeyd edək ki, qış idman növləri üzrə yığmamızın üzvü olan Mehman Ramazanzadə kross-kantri növünün sprint kateqoriyasında qüvvəsini sınamalı idi.

Ümumilikdə isə paralimpiyaçılar budəfəki Oyunlarda 6 növ üzrə 78 dəst medal uğrunda mübarizə aparıblar. Ev sahibi Çin komandası Qış Paralimpiya Oyunlarını 18 qızıl, 20 gümüş və 23 bürünc medalla birinci pillədə başa vurub. Ukrayna 11 qızıl, 10 gümüş və 8 bürünc medalla ikinci yeri tutub. Kanadalılar isə 8 qızıl, 6 gümüş və 11 bürünc medalla Paralimpiya Oyunlarında üçüncü yerə sahib çıxıblar. Ümumilikdə 19 ölkənin paralimpiyaçıları Pekində mükafatçılar sırasında yer alıblar. Oyunlar tarixində daha bir yaddaqalan hadisə isə ilk dəfə bir Asiya ölkəsinin medal sıralamasına görə qalib olmasıdır.



Qeyd edək ki, Pekin-2022 Qış Olimpiya Oyunlarında istifadə olunmuş arenaların bir neçəsi və Olimpiya kəndləri uyğunlaşdırılaraq Paralimpiya Oyunlarında da istifadə olunub.

### 1/8 final

**15 mart Saat: 00:00**

"Ayaks" (Niderland) - "Benfika" (Portuqaliya)
*"Yohan Kruyif Arena". Amsterdam*

"Mançester Yunayted" - "Atletiko Madrid"
*"Old traford". İngiltərə*

## Gənclər və idman naziri bölgələrdə idman obyektlərinin fəaliyyəti ilə tanış olub



Gənclər və idman naziri Fərid Qayıbov Gəncə şəhərində, Ağstafa, Göygöl, Ucar, Şəmkir, Goranboy, Qazax və Tovuz rayonlarında səfərdə olub. Nazirlikdən verilən məlumata görə, səfər çərçivəsində Qazax, Tovuz, Şəmkir, Göygöl və Gəncə Olimpiya İdman Komplekslərinin fəaliyyəti ilə tanış olan F.Qayıbov bu idman qurğularının daha səmərəli və effektiv idarə edilməsi ilə bağlı fikir mübadiləsi aparıb, müvafiq tövsiyələr verib. Goranboyda inşa edilmiş və istifadəyə hazır olan Olimpiya İdman Kompleksinin də imkanları ilə tanışlıq olub.

Nazir komplekslərdə mövcud idman bölmələrində aktivliyin və peşəkar yanaşmanın artırılması, xüsusən də üzgüçülük hovuzlarının imkanlarından səmərəli istifadə etməklə uşaq və gənclərin məşqlərə cəlb edilməsinin və İdman qurğularında marketinq işinin müasir tələblər səviyyəsində qurulmasının vacibliyini vurğulayıb.

Gəncə şəhərində yeni inşa edilən və təkcə ölkəmizin deyil, Qafqazın ən böyük idman mərkəzi olacaq Gəncə İdman Sarayının tikintisinin gedişatı ilə də tanışlıq olub və sarayın layihəsi ilə bağlı müzakirələr aparılıb.

Həmçinin Tovuzda Futbol Akademiyası, Goranboyda Üzgüçülük Hovuzu, Ağstafada, Şəmkirdə və Tovuzda Uşaq-Gənclər İdman Məktəblərinə baxış olub, mövcud vəziyyət yerində öyrənilib.

Ucar, Ağstafa, Qazax, Tovuz, Şəmkir, Gəncə, Göygöl, Goranboyda Gənclər Evlərinin fəaliyyəti ilə tanış olan Fərid Qayıbov, klub və dərnəklərin fəaliyyəti, xidmətlərin səviyyəsi ilə də maraqlanıb. İstedadlı gənclərin yaradıcılığı barədə məlumat verilib.

## Sərbəst güləş yığmamızdan tarixi nəticə

*(əvvəli 1-ci səhifədə)*

Komandamızın üzvlərindən Zirəddin Bayramov (65 kq), Cəbrayıl Hacıyev (74 kq), Abubakr Abakarov (86 kq) və İslam İlyasov (97 kq) bütün rəqiblərinə qalib gələrək Avropa çempionu olublar. Tofiq Əliyev (57 kq), Əşrəf Aşırov (79 kq) və Aydın Əhmədov (125 kq) isə bürünc medal qazanıblar.



Beləliklə, 10 çəkidən 9-da təmsil olunan millimiz 7 medal əldə edib. Yekunda 159 xal toplayan yığmamız komanda hesabında Avropa çempionu olub. Türkiyə (151) ikinci, Gürcüstan (149) isə üçüncü yeri tutub.

Qeyd edək ki, həm medalların əyarına, həm də komanda hesabına görə bu nəticə sərbəst güləş millimizin U-23 Avropa çempionatları tarixində ən yaxşı göstəricisi hesab olunur.

Yunan-Roma güləşi üzrə Azərbaycan millisi də Plovdivdə uğurla yarışıb. Qitə birinciliyində böyük məşqçi Rövşən Bayramov, məşqçilər Akif Əliyev və Həsən Əliyevin rəhbərliyi altında iştirak edən klassiklərimiz yarışı 2 qızıl, 1 gümüş və 2 bürünc medalla başa vurublar. Avropa çempionatında iştirak edən Azərbaycanın 6 yunan-Roma güləşçisindən beşi fəxri kürsüyə qalxıb. Nihat Məmmədli (60 kq) və Xasay Həsənli (77 kq) qitə çempionu olub. Ziya Babaşov (63 kq) ikinci, Laçın Vəliyev (87 kq) və Sərxan Məmmədov (130 kq) isə üçüncü yeri tutub. Güləşçilərimiz bu nəticə ilə 102 xalla komanda hesabında qitə üçüncüsü olublar. Gürcüstan (138) birinci, Türkiyə (133) isə ikinci pillədə qərarlaşıb.

Azərbaycanın qadın güləşi üzrə milli komandası isə Avropa çempionatını 4 medalla tamamlayıb. Komandamızın üzvləri 1 qızıl, 1 gümüş və 2 bürünc medala sahib olublar. Təmsilçilərimizdən Jalə Əliyeva (62 kq) qızıl, Elnurə Məmmədova (55 kq) gümüş, Gültəkin Şirinova (53 kq) və Nigar Mirzəzadə (68 kq) isə bürünc medala yiyələniblər.

## Paytaxtımız akrobatika gimnastikası üzrə 28-ci dünya çempionatına uğurla ev sahibliyi etdi

*(əvvəli 1-ci səhifədə)*

FIG rəsmisi deyib: “Azərbaycan Gimnastika Federasiyasına, könüllülərə və bütün tərəfdaşlara möhtəşəm dünya çempionatının təşkilində göstərdikləri səylərə görə minnətdarlıq edirəm. Akrobatika gimnastikası idman növləri arasında ən yüksək artistizm və mükəmməlliyə sahib növlərdən biridir. Bu dəfə musiqi və çıxışlar arasındakı harmoniya, o cümlədən hərəkətlərin icrasında daha çox artistizm diqqətimi cəlb etdi. Düşünürəm ki, gimnastikanın bu növü insanları daha çox cəlb edəcək bir nöqtəyə gəlib. İdmançıların çıxışı dostluğu, inamı və həmrəyliyi gözəl şəkildə ifadə etdi. İnanıram ki, gimnastlar bu xaotik dövrdə insanlıq üçün bir nümunə sərgilədilər. Bakıda dünya çempionatı yekunlaşdı. 2024-cü ildə dünya çempionatına İsrailin Holon şəhəri ev sahibliyi edəcək. İsraildə görüşənədək”.

Sonra FIG prezidenti akrobatika gimnastikası üzrə 28-ci dünya çempionatını bağlı elan edib.

Daha sonra Azərbaycan Gimnastika Federasiyasının baş katibi Nurlana Məmmədzadə FIG bayrağını M.Vatanabeyə təqdim edib. M.Vatanabe isə bayrağı İsrail Gimnastika Federasiyasının rəsmisi Zina Harrisə verib.

Gimnastların iştirakı ilə hazırlanan “Metaverse” adlı şou proqramla dünya çempionatına yekun vurulub.

Dünya çempionatında 17 ölkədən 170 gimnast iştirak edib. Dörd gün davam edən yarışda idmançılar qadın, kişi və qarışıq cütlükləri, eləcə də qadın və kişi qrupları proqramlarında balans, temp və qarışıq hərəkətlər üzrə çıxış ediblər.

Azərbaycan komandası dünya çempionatını 3 medalla başa vurub. Belə ki, Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyümüz qarışıq və temp hərəkətlərində bürünc, Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət qarışıq cütlüyümüz isə temp hərəkətində gümüş medal qazanıblar.

Xatırladaq ki, 2018-ci ildə Azərbaycan ilk dəfə akrobatika gimnastikası üzrə dünya kuboku turnirinə, bu il martın 3-dən 6-dək isə 12-ci dünya yaş qrupları yarışlarına ev sahibliyi edib.

## Cüdo Federasiyasının prezidenti region məşqçiləri və idmançıları ilə görüşüb



Azərbaycan Cüdo Federasiyasının prezidenti Rəşad Nəbiyev Ağstafa şəhərində region məşqçiləri və idmançıları ilə görüşüb.

Federasiyanın mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı regionlarda cüdonun daha da inkişaf etdirilməsi ilə bağlı müzakirələr aparılıb.

Regionlarda, o cümlədən Ağstafa və ətraf rayonlarda cüdonun daha da kütləviləşdirilməsi yeniyetmələrin və gənclərin fiziki və mənəvi tərbiyəsinə töhfə verməklə yanaşı, gələcəkdə milli yığmaların üzvü ola biləcək istedadlı idmançıların aşkarlanması baxımından da əhəmiyyət kəsb edir.

Bununla yanaşı, Rəşad Nəbiyev Göygöl Olimpiya Kompleksində kişilərdən ibarət milli yığmanın baş məşqçisi Riçard Trautmanın rəhbərliyi ilə təşkil olunmuş ilk təlim-məşq toplanışı çərçivəsində kişilərdən və gənclərdən ibarət milli yığma komandalarının məşqini də izləyib.

## Bədii gimnastlar Azərbaycan birinciliyində yarışacaqlar

Akrobatika gimnastikası üzrə milli və beynəlxalq yarışların ardınca bu dəfə Milli Gimnastika Arenası öz qapılarını bədii gimnastlara açacaq. Belə ki, gimnastika növünün ən zərif nümayəndələri martın 16-17-də keçiriləcək bədii gimnastika üzrə Azərbaycan birinciliyində qüvvələrini sınayacaqlar. Çempionatda fərdi gimnastlar gənclər (2007-2009-cu illər təvəllüdlü) və böyüklər (2006-cı il təvəllüdlü və daha böyük) yaş qruplarında medallar uğrunda mübarizə aparacaqlar.

Birincilikdə paytaxt üzrə “Ocaq Sport”, Bakı Gimnastika Məktəbi, Respublika Kompleks İdman Məktəbi, digər şəhər və bölgələr üzrə Xırdalanın “Zirvə” klubu, Sumqayıt, Gəncə və Mingəçevirdən ümumilikdə 40 idmançı yarışacaq.

Qaliblər həm ayrı-ayrı alətlərdə (top, halqa, gürzlər, lent), həm də çoxnövçülük xalına görə müəyyənləşəcək. Birinciliyin ilk günü gənclər və böyüklər arasında çoxnövçülük yarışları, ikinci günü isə alətlər üzrə final mərhələləri keçiriləcək.

Qeyd edək ki, ikiillik fasilədən sonra xüsusi karantin rejimi çərçivəsində yumşalma tədbirləri ilə əlaqədar olaraq tamaşaçılar Milli Gimnastika Arenasında yarışların izləmək imkanı əldə edəcəklər.

## Taekvondoçularımızın İran səfəri uğurla yadda qaldı

İran İslam Respublikasının paytaxtı Tehranda taekvondo üzrə ənənəvi “Fajr Open” G-2 kateqoriyalı beynəlxalq turnir keçirilib. Yarışda iştirak edən Azərbaycan idmançıları 4 (3 gümüş, 1 bürünc) medala sahib çıxıblar. Komandamıza gümüş medalları qadınların yarışında Fəridə Əzizova (67 kq), kişilərin mübarizəsində isə Cavad Ağayev (68 kq) və Radik İsaev (87+ kq) qazandırıb. Bürünc medala isə 53 kq çəki dərəcəsində çıxış edən Patimat Abakarova sahib çıxıb.

* * *

Taekvondo üzrə yığma komandamız Tehranda keçirilən ənənəvi “Fajr Open” G-2 kateqoriyalı beynəlxalq turnirdən sonra Asiya regionu üzrə “President Cup” turnirində mübarizə aparıb. Yığmamız turniri iki gümüş və üç bürünc medalla başa vurub. Komandamızın heyətində Taleh Süleymanov (87 kq) və Fəridə Əzizova (67 kq) gümüş medala sahib çıxıblar. Bürünc medalları isə komandamıza Patimat Abakarova (53 kq), Eltac Qafarov (74 kq) və Radik İsaev (87+ kq) qazandırıb.

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*






## *Qış İdman Növləri Federasiyasının prezidenti olimpiyaçılarımızla görüşüb*

Qış İdman Növləri Federasiyasının prezidenti Fuad Nağıyev fiqurlu konkisürənlər Yekaterina Ryabova və Vladimir Litvintsevlə görüşüb. O, görüşdə idmançıların martın 21-27-də Fransanın Monpelye şəhərində keçiriləcək dünya çempionatına hazırlıqları ilə maraqlanıb, onlara tövsiyyələrini verib və uğurlar arzulayıb. F.Nağıyev federasiyanın gələcək fəaliyyət planları haqqında danışaraq atletləri dəstəkləməyə hər zaman hazır olduqlarını bildirib.

Qeyd edək ki, Azərbaycanı dünya çempionatında Vladimir Litvintsev, Yekaterina Ryabova, həmçinin buz üstündə rəqs üzrə yığmanın üzvləri Yekaterina Kuznetsova və Aleksandr Kolosovskiy təmsil edəcək.

## Azərbaycan Milli Paralimpiya Komitəsi beynəlxalq yarışlara hazırlığı davam etdirir

Azərbaycan Milli Paralimpiya Komitəsi (AMPK) 2022-ci ildə ölkəmizdə keçiriləcək beynəlxalq yarışlara hazırlığı davam etdirir. Komitə oktyabrın 1-10-da keçiriləcək parapouerliftinq üzrə dünya çempionatı, həmçinin noyabrın 7-9-da təşkil olunacaq paracüdo üzrə dünya çempionatına hazırlığın sonuncu mərhələsinə başlayıb.

AMPK-nın mətbuat xidmətindən "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, bununla bağlı komitənin prezidenti İlqar Rəhimovun sədrliyi ilə iclas keçirilib. İclas zamanı İ.Rəhimov komitə əməkdaşlarına hazırlıqla bağlı müvafiq tapşırıqlar verib, eyni zamanda hər iki beynəlxalq yarış üçün Təşkilat Komitəsi yaradılıb. Təşkilat Komitəsinə rəhbərlik AMPK-nın baş katibi Kamal Məmmədova həvalə olunub.

Daha sonra İ.Rəhimov Azərbaycan və Yaponiya arasında diplomatik əlaqələrin qurulmasının 30 illik yubileyi münasibətilə Yaponiyanın Nippon Fondu və Milli Abilimpiya Federasiyasının birgə əməkdaşlığı çərçivəsində ölkəmizdə keçiriləcək "True color festival"ın hazırlıq prosesi ilə bağlı müvafiq tapşırıqlarını verib və tədbir üçün Təşkilat Komitəsi yaradılıb. Təşkilat Komitəsinə Milli Abilimpiya Federasiyasının vitse-prezidenti Rüfət Hacılı rəhbərlik edəcək.

## *"Olimpiya ümidləri" layihəsinə start verildi*

Azərbaycan Milli Karate Federasiyası 14-15 yaşlı yeniyetmələrdən ibarət milli komandanın heyətinə daha yüksək səviyyəli idmançılar cəlb etmək məqsədilə yeni layihəyə start verib.

Azərbaycan Milli Karate Federasiyasından verilən məlumata görə, "Olimpiya ümidləri" adlı layihədə 12-13 yaşlı uşaqlar arasında keçirilmiş respublika çempionatının mükafatçıları iştirak edirlər. Belə ki, layihə çərçivəsində həmyaşıdları arasında fərqlənən perspektivli karateçilərə həftədə bir dəfə xüsusi məşqlər keçiriləcək. Məşqlər tanınmış karateçilər və milli komandaların məşqçilərinin iştirakı ilə baş tutacaq.

"Olimpiya ümidləri" layihəsinin ilk məşqi rəmzi olaraq Bədən Tərbiyəsi və İdman Günü ərəfəsində başlayıb. Dünya şöhrətli karateçilərimizdən biri olan, 14-15 yaşlı yeniyetmələrin böyük məşqçisi Şahin Atamov 12-13 yaşlı karateçilərə fərdi təcrübəsindən təlim keçib.

Perspektivli azyaşlı karateçilərə növbəti həftələrdə Niyazi Əliyev, Rafael Ağayev, İrina Zaretska, Şahin Xudaverdiyev, Anar Allahverdiyev, Qurban Tağıyev və Denis Morozov kimi karate mütəxəssisləri dərs keçəcəklər. Beynəlxalq dərəcəli hakim Cahangir Babayev isə onlara yarış qaydaları və yeniliklərlə bağlı məlumatlar verəcək.

"Olimpiya ümidləri" layihəsinə Cahangir Babayev və Novruz Əliyev nəzarət edirlər. İlk məşqi izləyən federasiya prezidenti Yaşar Bəşirov tanınmış karate mütəxəssislərimizin rəhbərliyi ilə icra edilən bu layihənin perspektivli karateçilərin idman karyerasında müsbət rol oynayacağından əmin olduğunu söyləyib, onlara uğurlar arzulayıb. O, Azərbaycan karatesinin dünyada yüksək nüfuzunun qorunması üçün federasiyanın bütün imkanlardan istifadə etdiyini və yeni inkişaf planları üzərində işləndiyini bildirib.

# Yasamal rayonunda 5 mart - Bədən Tərbiyəsi və İdman Günü qeyd edilib




Yasamal rayon İcra Hakimiyyətində "İdman həftəsi" çərçivəsində 5 mart - Bədən Tərbiyəsi və İdman Günü münasibəti ilə bir qurup idman ictimaiyyəti nümayəndələrinin iştirakı ilə tədbir keçirilib. Tədbirdə Yasamal rayon Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərov, Yasamal rayon İcra Hakimiyyəti başçısının birinci müavini Hüseyn Əfəndiyev, millət vəkili Ülvi Quliyev, Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Olimpiya çempionu Zemfira Meftaxetdinova, Yasamal Rayon Ağsaqqallar Şurasının sədri Cavanşir Qurbanov və idman ictimaiyyətinin digər nümayəndələri iştirak ediblər.

Tədbirdən əvvəl Yasamal Rayon İcra Hakimiyyətinin inzibati binasında yerləşən ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub.



Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra torpaqlarımızın bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Yasamal rayon Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 mart 2005-ci il tarixli Sərəncamı ilə 5 mart tarixi Bədən Tərbiyəsi və İdman Günü elan edilib. O qeyd edib ki, dövlət başçısı tərəfindən imzalanmış sərəncamlar ölkə rəhbərliyinin idmana və idmançılara olan qayğısının bariz nümunəsidir. "Son illər paytaxtımız çoxsaylı mötəbər turnirlərə ev sahibliyi edib. Bunların arasında I Avropa Oyunları, Formula 1 üzrə Azərbaycan Qran-Prisi, 42-ci Ümumdünya Şahmat Olimpiadası, IV İslam Həmrəyliyi Oyunları, xüsusilə qeyd edilməlidir. Ölkəmiz bu yarışları yüksək səviyyədə təşkil etməklə, dünya idman tarixində silinməz iz qoydu", - deyə İlham Səfərov bildirib.

O, ötən dövr ərzində idarə tərəfindən yeniyetmə və gənclər arasında bədən tərbiyəsi və idmanın təbliği və inkişafı istiqamətində görülmüş işlərdən də söz açaraq bu sahənin idarənin fəaliyyətinin prioritet istiqamətlərindən biri olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Yasamal rayon İcra Hakimiyyəti başçısının birinci müavini Hüseyn Əfəndiyev isə çıxış edərək qeyd edib ki, bədən tərbiyəsi və idman Azərbaycan dövləti üçün hər zaman ən mühüm sahələrdən birini təşkil edib. "Dünya miqyasında idman ölkəsi kimi tanınan Azərbaycanın son 20 ildə qazandığı yüksək nəticələrinin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir. Qabaqcıl idman ölkələrindən biri olan Azərbaycan hazırda Olimpiya Hərəkatının fəal üzvlərindən biridir", - deyə Hüseyn Əfəndiyev qeyd edib.

O, çıxışı zamanı Yasamal rayonunda müxtəlif idman və bədən tərbiyəsi mərkəzlərinin, o cümlədən, şahmat-dama klubları, idman-sağlamlıq mərkəzləri, uşaq-gənclər idman məktəblərinin



fəaliyyət göstərdiyini bildirib. Qeyd olunub ki, son bir neçə ildə Yasamal rayonundakı müxtəlif ünvanlarda süni örtüklü futbol meydançaları sakinlərin istifadəsinə verilib. Bu futbol meydançalarının tikintisi və açılışı Yasamal rayon İcra Hakimiyyətnin başçısı Elşad Həsənovun xüsusi diqqət mərkəzində olub və bundan sonra da yeni idman infrastrukturlarının istifadəyə verilməsi rayon İcra Hakimiyyəti üçün prioritet olacaq.

Tədbirdə çıxış edən millət vəkili Ülvi Quliyev idmançıları və idman ictimaiyyətinin nümayəndələrini 5 mart - Bədən Tərbiyəsi və İdman Günü münasibəti ilə təbrik edərək bu bayramın Azərbaycanın bütün bölgələrində qeyd olunduğunu bildirib. Ülvi müəllim çıxışında həmçinin COVİD-19 pandemiyasının idman sahəsində də müəyyən çətinliklər yaratdığını, lakin idmançılarımızın imkan daxilində pandemiya qaydalarına uyğun olaraq məşqlər keçərək hazırlıq səviyyələrini qorumağı bacardığını qeyd edib. O, yaranan çətinliklərə baxmayaraq, idmançılarımızın bu gün də yüksək nəticələrlə xalqımızı sevindirdiyini və idmançılarımızın belə qələbələri gələcəkdə daha çox qazanacağına inandığını bildirib.

Tədbirdə çıxış edən Milli Olimpiya Komitəsinin vitse-prezidenti Zemfira Meftaxetdinova Azərbaycanda idmana göstərilən diqqət və qayğıdan danışaraq, idmançılarımızın bu qayğıdan bəhrələnərək ümidləri doğrultduğunu qeyd edib.

Azərbaycanda idmanın kütləvi xarakter daşıdığını deyən Olimpiya çempionu bunun gənc nəslin sağlam ruhda və zərərli vərdişlərdən uzaq olması üçün mühüm olduğunu diqqətə çatdırıb.

Yasamal Rayon Ağsaqqallar Şurasının sədri Cavanşir Qurbanov isə çıxışında qazanılan uğurların çətinliklər bahasına başa gəldiyini tədbirdə iştirak edən gənc idmançıların diqqətinə çatdırıb. O, müstəqillik illərinə qədər idman sahəsində yaranan çətinliklərdən danışaraq, idmançılar üçün bu gün hər cür şəraitin yaradıldığını və onların bundan layiqincə istifadə etmələrini gənc nəslə tövsiyə edib.

Daha sonra tədbirdə çıxış edən boks üzrə dünya və Avopa çempionatlarının mükafatçısı Əli İsmayılov, Zərifə Əliyeva adına liseyin fiziki tərbiyə müəllimi Hüseyn Hüseynov, "Olimpiya dünyası" qəzetinin baş redaktorunun müavini Aslan Şirəliyev tədbir iştirakçılarını Bədən Tərbiyəsi və İdman Günü münasibəti ilə təbrik edərək idman ictimaiyyətinə yeni nailiyyətlər arzu ediblər.

Tədbirin sonunda bir qrup idmançı və idman ictimaiyyətinin nümayəndəsi əldə etdikləri yüksək nəticələrə və 5 mart - Bədən Tərbiyəsi və İdman Günü münasibəti ilə fəxri fərmanlarla mükafatlandırılıblar. Təltif olunanlar arasında "Olimpiya dünyası" qəzeti də yer alıb. Qəzetimiz yeniyetmə və gənclər arasında keçirilmiş idman yarışlarının işıqlandırılmasında göstərdiyi dəstəyə görə və 5 mart - Bədən Tərbiyəsi və İdman Günü münasibəti ilə fəxri fərmanla təltif edilib.

# Novruz mərasimlərində milli xalq oyunları



*Dilqəm Quliyev,
pedaqogika üzrə
elmlər doktoru,
professor*

***"Novruz" - hərfi mənada yeni gün deməkdir. Amma ifadə etdiyi mərasim məzmununa görə keçidin bitməsi və yeni nizamın başlanğıcıdır. Novruza Bozqurd, Çağan, Ergenekon, Nevruz, Sultan Nevruz, Mart Doqquzu, Novruz və s. də deyilmişdir. "Novruz" anlayışı bəzi deyiliş fərqlərilə bir çox türk xalqlarının dillərində işlənməkdədir.***

Novruz haqqında məlumatlara Biruni Əbu Reyhanın "Asarul Baqiye" ("Pamyatniki minuvşix pokoleniy"), Kaşqarlı Mahmudun "Divani Lüğət-it Türk", Balasaqunlu Yusif Has Hacibin "Kutadqu biliq", Ömər Xəyyamın "Novruznamə", Nizamülmülkün "Siyasətnamə", Nizami Gəncəvinin "İsgəndərnamə" və s. əsərlərində rast gəlirik.

Novruz bayramı şənliklərində kütləvi gəzintilər, xalq oyunları, yarışlar, rəqs və nəğmələr oxunması, məzhəkəçilərin və kəndirbazların çıxışları olurdu. Novruz bayramında müharibələr və qarşılıqlı çəkişmələr dayandırılır, sülh müqavilələri bağlanılır, hətta dəfn belə növbəti günlərə təxirə salınırdı. Bu bayram o qədər şad və şən bir bayram olmuşdur ki, həmin günlərdə təkcə təmtəraqlı təntənələr deyil, eyni zamanda, xəstələrə müstəsna diqqət və qayğı göstərilmiş, qohum və dostlara baş çəkilmiş, əzizlərin, yaxınların məzarları ziyarət edilmiş, bir-birinə qarşılıqlı inam və simpatiya ifadə edilərək ümumbəşəri dəyərlər üstün tutulmuşdur.

Novruz bayramının Cəmşidin adı ilə bağlı olması haqqındakı məlumat bu bayramın meydana gəlməsi tarixini aydınlaşdırmağa müəyyən qədər əsas verməklə yanaşı, həm də bayramın Azərbaycanla bağlı olması, məsələsini izah etmək nöqteyi-nəzərindən də maraqlı və əhəmiyyətlidir.

Novruz bayramının Azərbaycanla bağlı olması fikirləri əsrlər boyu davam edərək müasir dövrümüzə qədər gəlib çatmışdır. Ümumiyyətlə, orta əsr mənbələrinə xas olan belə bir cəhəti qeyd etməliyik ki, həmin dövrlərdə bütün bayramların hökmdarların adı ilə bağlanmasına xeyli səy göstərilmişdir. Bu isə dövrün xüsusiyyətlərindən irəli gəlirdi. Çünki orta əsrlərdə alim və şairlərin, demək olar ki, əksəriyyəti müəyyən hökmdarların tabeliyində və ya himayəsi altında olmuşdur.

Yaz bayramı haqqında yazılı məlumat eramızdan əvvəl 505-ci ildən məlumdur. Uzun əsrlər keçsə də, bu bayram getdikcə təkmilləşmiş, kütləviləşmiş və indiyə qədər də öz aktuallığını saxlamaqdadır. Novruz bayramı ənənəvi şəkildə hər il respublikamızın bütün bölgələrində böyük təmtəraqla qeyd olunur. Novruzu bir ay əvvəldən qarşılamaq Azərbaycanda bir adət olub və bu gün də həmin adət yaşamaqdadır. Novruza qədər hər çərşənbə axşamı evlərin həyətində tonqal qalanar, tonqala üzərlik töküb belə sözlər oxuyardılar:

"Üzərriksən havasan
Cəmi dərdə davasan.
Hər yerdə sən yanarsan".

Bayram günlərində xalq bir yerə toplaşar, şənlik edər, müxtəlif oyunlar oynanılardı. Bu oyunlarda elin güclü, qüvvətli igidləri öz bacarıqlarını nümayiş etdirərdilər. Azərbaycanda lap qədimdən Novruz şənliklərində "İynə-iynə", "Sayaçı", "Yuğlama", "Yel baba", "Cütçü şumu", "Kəvkəs", "Kosa-kosa", "Qaravəlli", "Qurd oyunu", "Aşıq oyunu", "Dirə döymə" və s. kimi milli xalq oyunları keçirilib. Bütün bunlarla birlikdə "Kəndirbaz", "Masqara", "Qılınc oynatma", "Kəmər atma", "Qoç döyüşdürmə" tamaşaları hazırlanır.









## "Mil" oyunu

Novruz bayramında pəhləvanlar hər əlinə bir mil alıb başının üstünə qaldırardı. Bu zaman dumbul çalınmağa başlardı. Dumbul, əvvəlcə, lap ahəstə, sonra get-gedə sürətlə çalınardı. Mil oynadan adam da həmin templə başının üstə milləri hərləyərdi. Oyun qurtardıqdan sonra camaat oyunçuları alqışlayardı. Bəziləri camaatın xahişi ilə mili tək əllə yuxarı atıb dəstəyindən tutardı. Yaxşı mil oynadanlar mili ayağının altından da atıb-tutardı. Pəhləvanlar şənliyin sonunda qurşaq (güləşmə) tutardılar. Güləşmədə iştirak edənlər - Şonu oğlu Həsən, Məmməd Hüseyn, Şah İsmayıl, Pəhləvan Məhəmməd Hənifə, Cərə Süleyman, Altıaylıq Əbdüləli, Xiləli Pəhləvan (Əli Hümmət), Zorba Rzaqulu, Hapış Məhəmmədəli, Qatırçı Mirzə, Axmaq nəvəsi İsrafil, Çopur Sayad oğlu, Tarta nəvəsi Kəbləhüseyn, Balabançı oğlu Məmməd, Xəlifə Süleyman (adamlara ləqəb qoymaq keçmişin adətlərindən idi - red) dövrünün tanınmış pəhləvanları sayılardılar.

Oyunun axırına bir qədər qalmış camaat pəhləvanların birindən xahiş edərdi ki, gənclərlə güləşsin. Bu zaman Altıaylıq Əbdüləli papağını başından götürər, sarı ipək qurşağını açar, ipək köynəyini çıxardar, sonra onun qabağına bir tünükə qoyardılar. Gənc həvəskarlar da soyunardılar. Altıaylıq "süfrəyə" tullanardı. Onu hər tərəfdən tamaşaçılar alqışlayardılar. Məşhur musiqişünas, xanəndə Hacı Zeynal oğlu Ağa Kərim Altıaylığın şəninə pişro deyərdi.

Qeyd edək ki, altıaylıq ləqəbi ilə tanınan adam nazik, uzun, qara bığlı, hündürboylu, enlikürəkli, üzügülər bir pəhləvan idi. Dodaqaltı gülə-gülə əllərini sinəsinə qoyub camaata baş əyərdi. Əliaçıq tamaşaçılar ona "üçlük", "beşlik", "onluq" əskinas (kağız pul) bağışlayardılar. Hərdən İrandan, Ərdəbildən, Sarabdan nüfuzlu, adlısanlı qurşaq tutanlar da gələrdi. Novruz bayramında həmin pəhləvanlar zorxanada da iştirak edirdilər. Bakıda yaşayan iranlı pəhləvanlar - Şatır Məmməd, Kankan Rza, Qənnatı Kərim, Pinəçi Məmi və digərləri Novruz bayramında qurşaq tutardılar. Yığılan pullardan zorxanaya xərc çəkilər və iştirak edənlərə hamam pulu verilərdi.

## Qurşaqtutma

Qurşaqtutma Azərbaycanda geniş şəkildə oynanılan qədim oyunlarından biridir. Novruz bayramı və digər el şənliklərində qurşaqtutma yarışı keçirilir. Bu, zorxana idman oyunlarında güləş yarışının ən qədim ənənəvi adlarından biridir. Tamaşa ünsürləri ilə zəngin olan bu güləş növündə olan oyun və yaxud da yarış adətən Novruz bayramı və digər el şənliklərində oynanılır. Müxtəlif şənlik, bayram və yığıncaqlarda pəhləvanlar qoşa zurnanın cəsarət, güc, döyüşkənlik aşılayan zil səsi, zərb alətlərinin gur sədası altında meydana gəlir, igid cavanları güləşə çağırırlar:

- Mənəm nərlərin nəri,
Ay oğlan.
Mənəm ərlərin əri,
Ay oğlan.
Əl qolunu çatdadaram,
Ay oğlan.
Bağrını partladıram,
Ay oğlan.



## Qılınc oynatmaq

Bu oyunda meydana çıxan gənclər bir-birlərinin əllərindən qılınc düşənə qədər döyüşməlidirlər.

Qılıncoynatma bəzən at üstündə də keçirilir. Bu oyundan qalib çıxana Novruz hədiyyəsi verilərdi.

## Cıdır oyunu

Cıdır oyunu Novruz bayramı və digər el şənliklərində təşkil edilimiş atçılıq oyunlarından biridir. Cıdır xalq oyunun Azərbaycanda yayılması "Kitabi-Dədə Qorqud" boylarından, Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasından və klassik ədəbiyyatımızın digər nümunələrindən də bəllidir.

Cıdır oyununun keçirildiyi meydan və gün əvvəlcədən müəyyən edilir. Adlı- sanlı, tanınmış cavanlar bu yarışa xüsusi hazırlıq görür, təlim almış atlarını cıdıra hazırlayırlar.

Cıdır iştirakçılarından kim məsafəni birinci qət edərsə, o, yarışın qalibi sayılır və adət üzrə ona xonça təqdim olunur. Qalib çıxmış atın isə alnına bir yumurta vurub sındırır, boynuna qırmızı rəngli kələğayı və ya parça bağlanılır. Cıdırın digər iştirakçılarına da müəyyən hədiyyələr verilir. Cıdır əyləncələrini zurnaçılar dəstəsi müşaiyət edir. Adətən cıdır meydanları üçün elə yer seçilir ki, əhali cıdıra çıxanları görə bilsin. Cıdır sözün əsl mənasında, gənclərin sınaq meydanına çevrilir, elin çevik, mərd, mahir çaparları burada müəyyən edilir. Cıdır ötəri yarış, sadəcə at oynatmaqla məhdudlaşan əyləncə deyil. Burada pərəstişin, inamın, sehr və ovsunun izləri də var.

## "Papaq" və "Güc sınağı"oyunu

Oyunun iştirakçısı müəyyən vaxt ərzində öz papağını başında saxlamağa çalışmalı, həm də rəqib komandadan iki papaq götürməlidir. "Güc sınağı" oyunu da çox maraqlıdır. Bu zaman atlı çaparaq qabaq və arxa ayaqları bağlanmış qoyun və ya keçini yerdən götürüb yəhərə qaldırmalıdır. Bu oyunun da müxtəlif variantları var. Ümumiyyətlə, bütün xalq oyunlarımız gənclərə çəldlik, sərrastlıq, dəqiqlik, özünəinamlılıq aşılayır.

## "Sürpapaq" və "Piyalə və ox"

"Sürpapaq" oyununda isə oyunçular top-papaq uğrunda mübarizə aparır, sonda onu qapı dairəsindən keçirirlər. Oyun zamanı iştirakçılara cəmi üç dəfə atdan düşməyə icazə verilir. Bu oyun bir qədər müasir basketbola da oxşayır. Atüstü idman növlərindən "Piyalə və ox" oyunu da çox maraqlıdır. Oyunda məqsəd atı çaparaq xüsusi dirəyin üzərindəki piyaləni oxla vurmaqdır. Bu oyun bir neçə variantda oynanılır. "Piyalə və ox" oyunu iştirakçılardan dəqiqlik və çəldlik tələb edir. Atın üstündə sürətlə hərəkət edərkən piyaləni dəqiq nişan almaq üçün həm də sərrastlıq lazımdır.

Novruz bayramında bütün bunlarla yanaşı, at çapma və güləşmə yarışları təşkil edilir, meydanlarda kütləvi oyunlar, rəqslər, yallılar oynanılır, kəndirbazların tamaşaları göstərilir, mahnılar oxunur və aşıqlar deyişirlər. Novruz bayramında kinküdürət unudulmalıdır. Heç kəs gərək bir-biri ilə küsülü qalmasın. Novruz bayramı bolluq, xeyirxahlıq, gözəllik bayramıdır.

Xalq arasında çox qədimdən yaranan "Qurd oyunu", "Qurd basdı", "Qurdlar səni yeyər", "Cızıq turnası oyunu", "Gizlənpaç" (gizlən, qaç), "Oğru-oğru", "Şuma qədər", "Aşıq-aşıq", "Qoz-qoz", "Pula-pula", "Fincan-fincan" və başqa oyunlarda həm uşaqlar, həm də böyüklər həvəslə iştirak edərdilər. Novruz bayramının ən yaxşı və yadda qalan atributlarından biri, ən çox tamaşaçı cəlb edən hissəsi milli xalq oyunlarıdır.

Novruz bayramından söhbət açan bəzi müəlliflər "kosa-kosa", "kəndirbaz", "sim pəhləvan", "masqara", "gözbağlıca", "cıdır" tamaşaları, qələncə oynatmaq, kəmənd atmaq, qurşaq tutmaq, daş qaldırmaq, at çapmaq yarışları, bənövşə, və s. kütləvi əyləncəli milli oyunların bayramla əlaqədar keçirildiyini göstərmişlər. Sadaladığımız bu xalq oyunları uzun yol keçərək bu günümüzədək gəlib çatmışdır.

Bir məsələni qeyd etmək yerinə düşər ki, bu oyunların bəziləri artıq müasir beynəlxalq idman növünə çevrilmişdir. Məsələn: güləş, atçılıq, atıcılıq, ağırlıqqaldırma, qaçış və digər idman növləri məhz xalq oyunlarının kökləri əsasında yaradılmışdır. Sevindirici haldır ki, beynəlxalq aləmdə fərqlənən idmançılarımz xalqımızın keçmiş adət-ənənələrindən, xalq oyunlarından bəhrələnərək bu gün dünyada şöhrət qazanmışlar. İnanırıq ki, bu tendensiya bundan sonra da davam edəcək, idmançılarımız ən nüfuzlu beynəlxalq yarışlarda, o cümlədən Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında, başqa mötəbər idman tədbirlərində əldə etdikləri qələbələrlə xalqımızı sevindirəcəklər.

— Döyüş sənəti növləri —

# Aşihara: güc, texnika və zehnin vəhdəti

## Avropanı fəth edib, ustad zirvəsinə yüksələn azərbaycanlı

***Şərq əlbəyaxa döyüş növləri bütün dünyada sevilir. Karate bu baxımdan digər növlərdən heç də geri qalmır. Maraqlıdır ki, karatenin də yetərincə xeyli növü mövcuddur. Onların hər biri özünəməxsus xüsusiyyətinə görə idmançı və azarkeş ordusu formalaşdırıb. Karatenin dünyada sayılıb-seçilən növlərindən biri də aşihara döyüş növüdür.***

Aşihara ustad Hideyuki Aşihara tərəfindən Yaponiyada yaranıb. İdman növünün yaranma tarixi təqribən 1974-cü ilə təsadüf edir. Bu zaman ustad Aşihara hələ Kyokşinkay təşkilatına bağlı idi. Tezliklə Aşihara təşkilatı çox sürətlə inkişaf edir və genişlənərək kyokşinkay təlimatçılarının işinə mane olur. Bunun üçün də qonşu rayonlardan olan təlimatçılar Kyokşinkay təşkilatının baş şöbəsinə şikayət edirlər. Kyokşinkay daxilində baş verən münaqişələrdən qaçmaq üçün 1978-ci ilin martında ustad Aşihara Tokioya çağırılır. Ona öz klublarını tərk etməyi və kyokşinkayın baş şöbəsində yüksək vəzifə tutmaq təklifi edilir. Aşihara isə bu təklifi mənfi cavablandıraraq Kyokşinkay təşkilatını tərk edir. Beləliklə, 1980-ci ilin sentyabr ayında Hideyuki Aşihara karate üzrə yeni beynəlxalq təşkilat yaradır. Bu təşkilatda Asihara öz karatesini inkişaf etdirməyə başlayır. Təşkilatın qurulmasından qısa bir müddət sonra aşihara sistemi üzrə bir sıra kitablar nəşr olunur. Daha sonra isə üç tədris videofilm yaradılır ki, bu da hazırda metodik vəsaitlər kimi istifadə olunur.

Hazırda mərkəzi ofisi Niderlandda yerləşən Beynəlxalq Aşihara Federasiyasının 30 ölkədə rəsmi nümayəndəliyi var.

Azərbaycanda isə bu idman növünə maraq 1990-cı illərdən təşəkkül tapıb. 1998-ci ildən Maarif Bağırovun səyi nəticəsində federasiya Azərbaycan Respublikasının Ədliyyə Nazirliyindən rəsmi qeydiyyatdan keçib. İldən-ilə nailiyyətlərini artıran Azərbaycan Aşihara Federasiyası hər il müxtəlif çempionatlarda və beynəlxalq yarışlarda təmsil olunur.

Bu günlərdə Azərbaycanın aşihara karateçiləri Türkiyənin Antalya şəhərində uşaqlar, yeniyetmələr, gənclər və kişilər arasında təşkil olunan dünya çempionatında iştirak ediblər. Yarışda böyük heyətlə təmsil olunan komandamız Vətənə 9 medalla qayıdıb. Medallardan 5-i qızıl, 1-i gümüş, 3-ü isə bürüncdür.

Antalya sınağından sonra Azərbaycan Aşihara Federasiyasının prezidenti, Azərbaycanın əməkdar bədən tərbiyəsi və idman xadimi, SSRİ idman ustası, 6-cı dan qara kəmər sahibi Maarif Bağırov, çempionatda uğurla iştirak edən idmançılarımız və onların məşqçiləri redaksiyamızın qonağı oldular.

Söhbətə aşihara haqqında qısa məlumatla başlayan Maarif müəllim karatenin bu növünün Azərbaycanda yaranması barədə danışdı. Vaxtilə güləşlə məşğul olduğunu deyən Maarif Bağırov aşihara döyüş sənətinə təsadüfən gəldiyini bildirdi.

"Dünyada karate növləri çoxdur. Bunlardan biri də aşihara karate döyüş sənətidir. Bu idman növünün yaranması və inkişafı yaponiyalı ustad Hideyuk Aşiharanın adı ilə bağlıdır. Aşihara özü həm cüdo, həm də kyokşinkay karate ilə məşğul olub. O, sonralar öz yeni idman növünü yaradaraq ona aşihara karate adını verib. Aşihara tələbələrinə yaratdığı idman növünün sirlərini aşılayaraq, qısa zaman ərzində bu idman növünün populyarlığına nail olub.

Təəssüf ki, o, 50 yaşında dünyasını dəyişdi. Aşihara doğrudan da gözəl və təhlükəsiz idman növüdür. Aşihara idman növünə gəlişimi təsadüf adlandırardım. Belə ki, Sankt-Peterburqda olarkən təsadüfən bir satıcı mənə aşihara karate idman növünün fəndlərinin olduğu kaseti almağı təklif etdi. Düzünü desəm, kaset mənə ilk baxışdan maraqlı gəldi. Videoya baxdıqdan sonra bu idman növünə heyran qaldım. Çünki bu növ həqiqətən də digərlərindən fərqlənirdi. Bu döyüş növü sağlamlıq, təhlükəsizlik və müdafiə olunmaq baxımından çox gözəldir. Aşiharanın ən gözəl tərəflərindən biri də zərbələrdən qaçmaqla bağlıdır. Belə ki, idmançı yanlara çıxaraq təhlükəli zərbələrdən yayına bilir. Beləliklə, aşiharanın Azərbaycana gəlişi 1990-cı illərin əvvəllərinə təsadüf etdi. Həmin kaseti Azərbaycana gətirdikdən sonra orada olan hərəkətləri dəqiqliklə öyrəndim. Daha sonra həm özüm məşq edir, həm də tələbələrə bu döyüş növünün sirlərini öyrədirdim.1997-ci ildə Niderlandda aşihara üzrə təşkil olunan seminarlarda iştirak etdim və bu döyüş sənəti ilə bağlı biliklərimi daha da təkmilləşdirdim. Aşiharanın sertifikatını Niderlandda beynəlxalq ustalardan aldım.

1998-ci ildən isə Azərbaycan Aşihara Federasiyası rəsmi olaraq Ədliyyə Nazirliyindən qeydiyyatdan keçdi. Tezliklə Beynəlxalq Aşihara Federasiyasına üzv olan ölkəmiz 2002-ci ildən rəsmi olaraq dünya çempionatında iştirak etməyə başladı. 2004-cü ildən sonra isə idmançılarımız dünya çempionatlarında nailiyyətləri ilə digər ölkələrin karateçilərinə ciddi rəqib oldular. Komandamız demək olar ki, iştirak etdiyi hər bir yarışdan yüksək nəticələrlə Vətənə qayıdır.

Bu gün hazırda paytaxtla yanaşı, Gəncə, Göygöl, Ağcabədi və digər bölgələrdə 10 bölməmiz fəaliyyət göstərir", - deyə M.Bağırov qeyd etdi.

Aşiharanı digər karate növlərindən fərqləndirən Maarif müəllim, burada əsasən cüdoya, aykidoya bənzər atıcı fəndlərin olduğunu qeyd etdi.

"Aşihara "sabaki" prinsipinin konsepsiyasında üç əsas bənd formalaşıb. Bunlar aşihara karate dairəvi simvolu ilə təqdim olunan döyüş mövqelərinin hazırlanması, döyüşdə məsafəni qiymətləndirmək və döyüş məşqlərinin yerinə yetirilməsinin maksimum hərəkətliliyi və sürətidir.

Bu idman növü ilə sağlamlıq üçün hər yaşda məşğul olmaq mümkündür. Əsasən isə 6-8 yaşından başlayaraq, uşaqlar məşqlərə cəlb olunurlar. Bu idman növü ilə məşğul olan idmançılarımızın əksəriyyəti bu gün güc strukturlarında çalışırlar. Bizim üçün fəxrdir ki, 44 günlük Vətən müharibəsində xüsusi təyinatlı dəstənin üzvləri arasında aşihara karate idman növü ilə məşğul olan idmançılarımız var", - deyə Maarif Bağırov bildirdi.



Maarif Bağırov söhbət zamanı 2024-cü ildə ölkəmizdə aşihara karate idman növü üzrə dünya çempionatının keçirilməsi məsələsinə də toxundu. O, həmçinin beynəlxalq federasiyanın prezidenti ilə səmimi münasibətlərindən və ali qurumun rəhbərinin ölkəmizə səfərindən də danışdı: "Bu gün Beynəlxalq Aşihara Federasiyasının prezidenti Deyv Conikerslə çox gözəl münasibətimiz var. O, hətta 2020-ci ilin əvvəllərində ölkəmizdə olub, Göygöldə Qarabağ şəhidlərinin xatirəsinə həsr olunmuş aşihara üzrə karate turnirində iştirak edib. Deyv Conikers həmin turnirdə çıxış edərkən Azərbaycanda aşihara idman növünün inkişafı haqqında xoş sözlər dedi.



Türkiyədəki dünya çempionatından sonra bir sıra ölkələrin federasiya rəhbərləri təklif etdilər ki, dünya çempionatına 2022-ci ildə Azərbaycan ev sahibliyi etsin. Lakin mən bu təkliflə razılaşmadım. Çünki dünya çempionatına rahat bir şəkildə hazırlaşmaq üçün vaxt lazımdır. Bunun üçün də yarışı 2024-cü ildə təşkil etməyi planlaşdırırıq. İstəyirəm ki, elə bir turnir təşkil edək ki, yenidən dünyanın diqqətini ölkəmizə cəlb edək".

### Qaliblərin yarış təəssüratları

Söhbət zamanı Türkiyədə uğurla çıxış edərək medal qazanan komandamızın bir neçə üzvü də fikirlərini bildirdilər. İdmançılar aşihara idman növünə gəlişi və bu döyüş sənəti ilə bağlı gələcək planlarını da açıqladılar.

Söhbətə isə ilk olaraq Antalyadakı dünya çempionatında gümüş medal qazanan Əfsər Atakişiyev qoşuldu. Yaxın qohumlarının aşihara ilə məşğul olduğunu deyən yeniyetmə idmançımız bu idman növünə olan sevgisindən danışdı:

"Aşiharaya gəlməyim yaxın qohumlarımın sayəsində olub. Həqiqətən də bu idman növündən zövq alır, məşqlərimi sevə-sevə keçirəm. İstər hücum, istərsə də müdafiə olunmaq bu idman növünü digərlərindən fərqləndirir.

Antalyadakı çempionat ilk böyük rəsmi yarışım idi. Bu çempionata yaxşı hazırlaşmışdım və bunun nəticəsi olaraq ölkəmizə gümüş medalla qayıtdım".

Türkiyədə keçirilən dünya çempionatının qızıl medalçısı Nizam Həsənzadə isə bu idman növü ilə sağlamlığı üçün məşq etdiyini dedi:

"Mənim də bu idman növünə gəlişim yaxın qohumlarımın sayəsində olub. Bu idman növü məni öz maraqlı tərəfləri ilə özünə cəlb edib. Aşihara ilə ilk növbədə öz sağlamlığım üçün məşğul oluram. İlk böyük nailiyyətimi isə Türkiyədə qazandım. Bütün rəqiblərimi məğlub edərək çempion adını qazandım. Çalışacağam ki, bundan sonra da məşqçilərimin tövsiyyələrinə əməl edim və uğurlarımı artırım".

Aşihara üzrə komandanın məşqçisi və idmançısı Musa Musazadə isə bu döyüş sənətinin insan üçün faydalarından danışdı. 20 ildən çoxdur ki, aşihara ilə məşğul olan Musa bu idman növünün yaddaşa təsiri barədə oxuculara məlumat verdi: "Yaddaşı zəif olan idmançılar bu növdə nəticə əldə edə bilmirlər. Çünki aşihara yalnız güc demək deyil. Burada həm güc, həm də zehin böyük rol oynayır. İdmançının zehni də güclü olmalıdır ki, nəticə əldə edə bilsin. Həm zərbələrin adını, həm də zərbələr toplusu olan kombinasiyaları yadda saxlamaq lazımdır. Aşihara növündə tez-tez seminarlar və kəmər imtahanları keçirilir. Bu seminarlarda katalar olur ki, bunlar da müəyyən saya və texnikaya əsaslanır. İdmançılar da bunları əzbərləməlidirlər. Bunu dəfələrlə etdikdə insanda beyin məşqi də formalaşır. Bütün bunlar insanın beyni ilə bədənin birgə işləməsinə səbəb olur".

Musa Musazadə söhbət əsnasında Türkiyədə keçirilən yarışda komandanın uğurlu çıxışına da toxundu. Antalyaya 10 nəfərlik heyətlə yollandığını deyən dördqat dünya çempionu komandanın bütün üzvlərinin mükafatçılar sırasında yer aldığını qeyd etdi.

"Türkiyədəki dünya çempionatına 10 nəfərdən ibarət komanda ilə yollanmışdıq. Komandamızın tərkibində federasiyanın nümayəndəsi, məşqçi Elnur Xəlilov və 9 idmançı yer almışdı. Sevindirici haldır ki, idmançılarımızın hər biri Vətənə medalla qayıtdılar. Bu medallardan 5-i qızıl oldu. Mən və Natiq Qafarov kişilər arasında full-kontakt versiyada döyüşdük və hər ikimiz qızıl medala sahib çıxdıq. Bu, mənim dünya çempionatları tarixində dördüncü qızıl medalım idi. Qeyd edim ki, bundan əvvəl 2018-ci ildə Qazaxıstanda da bu versiyada dünya çempionu olmuşdum. Bu yarışda Türkiyə, Almaniya, Qazaxstan və Qırğızıstandan olan rəqiblərlə qarşılaşdıq. Mənim ilk rəqibim almaniyalı idmançı oldu. Rəqibimə nokautla qalib gəldikdən sonra finala çıxdım. Həlledici görüşdə qazaxıstanlı rəqibim döyüş vaxtı zədələndiyinə görə mübarizəni davam etdirə bilmədi və qələbə mənə verildi.

Komandamıza digər qızıl medalları isə İbrahim Xəlilli (25 kq) 8-9 yaşlılar, Yadulla Hüseynov (-50 kq) 10-11 yaşlılar, Nizam Həsənzadə (-55 kq) isə 12-13 yaşlılar arasında qazandırdı. Əfsər Atakişiyev (-50 kq) 14-15 yaşlılar arasında gümüş medala layiq görüldü.Mehdi Xəlilov (25 kq) 8-9 yaşlılar, Yusif Qafarov (-30 kq) 9-10 yaşlılar, Nadir Şükürov (-50 kq) isə 14-15 yaşlılar arasında bürünc medala sahib çıxdı.

Mən Maarif müəllimin başçılığı altında 2011-ci ildən yığma komandanın tərkibində iştirak etmişəm. Biz iştirak etdiyimiz yarışlarda komanda hesabında demək olar ki, birinci yerə çıxmışıq. Nadir hallarda isə ikinci, üçüncü yerləri tutmuşuq. Əksər hallarda isə idmançılarımız yarışlardan medalla qayıdıb. Əsas rəqiblərimiz Qazaxıstan Əfqanıstan və Rusiya idmançıları olsa da, yenə də idmançılarımız həmin rəqiblərlə daha rahat döyüşür, qələbə qazanaraq favorit olduqlarını sübut edirlər", - deyə Musa Musazadə fikirlərini tamamladı.

Aşihara idman növü ilə həm idmançı, həm də məşqçi kimi məşğul olan Natiq Qafarov isə bu idman növündə oğlanlarla yanaşı, qızların da məşq etdiyini qeyd etdi. Hazırda Abşeron rayonunun Saray qəsəbəsində məşq keçən N.Qafarov bu idman növündə zədə riskinin az olması fikirinə də münasibət bildirdi: "Mən aşihara üzrə həm məşq keçir, həm də döyüşürəm. Oğlum Yusif Qafarov da bu idman növü ilə məşğul olur. Həm də onun şəxsi məşqçisiyəm. Ümumiyyətlə, qeyd edim ki, bu idman növündə oğlanlarla yanaşı, qızlar da məşq keçirlər. Dünya, Avropa və Asiya çempionatlarında da oğanlarla yanaşı, qızlar da mübarizə aparırlar. Övladını məşqə gətirən hər bir valideyn sözsüz ki, ilk növbədə bu idman növünün təhlükəsizliyi ilə maraqlanır. Biz isə onları bu barədə məlumatlandırırq. Ümumiyyətlə, qeyd edim ki, 18 yaşınadək idmançılar zədələrdən qorunmaq üçün dəbilqə, əlcək, bandaj, kalpakdan istifadə edirlər. Bu vasitələrdən istifadə olunduğu üçün idmançı maksimum dərəcədə zədələrdən qorunur. Ümumiyyətlə, aşiharada digər idman növləri ilə müqayisədə zədələrə az hallarda rast gəlinir".

***Azər Əlizadə***

— MARAQLIDIR —

(əvvəli qəzetimizin 8-ci sayında)

# Foto-obyektivin gözündən yayınmayan, yaddaşlara həkk olan məqamlar

## Azarkeşə kunq-fu zərbəsi endirən futbolçu

"Mançester Yunayted"in məşhur fransalı hücumçusu Erik Kantona təkcə öz oyunu ilə deyil, həm də kobudluğu ilə yadda qalıb. Onun dəfələrlə





azarkeşlərə qarşı qeyri-etik hərəkətləri idman tarixinə düşüb. Bu məşhur fotonu çoxları görmüşdü. Kantona fonda azarkeşə doğru sıçrayış edir. Axı azarkeş ona nə demişdi?

1995-ci il yanvar ayının 25-də "Mançester Yunayted" "Kristal Pelas"la üzə-üzə gəlirdi. Erik rəqib müdafiəçilər tərəfindən möhkəm qorunurdu. Bu da fransalı futbolçunu ciddi şəkildə qəzəbləndirirdi.

İkinci hissənin əvvəlində onun əsəbləri tab gətirmədi. Kantona rəqibi vurur və həmin anda qırmızı vərəqə ilə cəzalandırılır.

Kantona soyunub-geyinmə otağına gedərkən, doqquzuncu sıradan xüsusi olaraq enən Mettyu Simmons adlı azarkeşdən bir ifadə eşidir: "Cəhənnəm ol, öz Fransana, lənətlənmiş axmaq! Çıx bayıra, pislik, eşidirsən?!"

Bu sözlər Erikə "öküzə qırmızı parça" təsir edən kimi təsir etdi. Futbolçu tribunada oturan azarkeşin üzərinə atılaraq, ayağı ilə zərbə endirdi. Xoşbəxtlikdən münaqişə tez yatırıldı. Qəzəbli Kantonanı isə birtəhər soyunub-geyinmə otağına apardılar.

Kantona dava nəticəsində iki həftə həbs cəzası aldı. Lakin vəkili sayəsində bu cəzanı dəyişərək, 120 saat islah işləri ilə əvəz olundu.

Klub onu 20 min funkt cərimə etdi. Üstəlik, futbol assosiasiyasına da 10 min ödəyərək, oktyabr ayına qədər oyunlardan kənarlaşdırıldı. Bütün bunlara baxmayaraq, bu insidentə cəmiyyətin fikirləri müxtəlif oldu. Kimisi azarkeşi, kimisi də futbolçunu müdafiə etdi. Kantona isə bu hadisədən çox peşman idi.

## SSRİ və Kanada komandaları tarixin ən dəhşətli münaqişəsini təşkil etdi

35 il bundan əvvəl hokkey tarixində ən biabırçı bir hadisə baş vermişdi. Hokkey üzrə gənclər arasında keçirilən dünya çempionatında Kanada və SSRİ komandaları görüşürdü.

Həmin qarşılaşmada "Ağcaqayın yarpağlıları"na qızıl medalı qazanmaq üçün beş şayba fərqi lazım idi. Sovet hokkeyçiləri turnirdə uğursuzluqla qarşılaşsalar da, bununla barışmaq istəmirdilər.

Matçdan qabaq SSRİ-nin əfsanəvi hokkeyçisi Anatoli Tarasov soyunub-geyinmə otağına girərək, komanda yoldaşlarını "qızışdırır": "Dünya çempionatında məğlub olmaq olar. Lakin kanadalılara qalib gəlməliyik! Gözünü vurub, çıxarıblarsa, götür, qoy yerinə və kanadalının ardınca qaç"

Matç iştirakçısı Aleksandr Qalçenyuk deyirdi: "Biz buzun üzərinə çıxanda, artıq müharibəyə hazır idik"

Kanada hokkeyçisi Şon Simpson xatırlayırdı: "Yerdə yuvarlananda biz onlara çox pis söyüşlər deyərək, bağırırdıq".

İkinci hissədə kanadalılar 4:2 hesabı ilə irəlidə idilər. Ehtiraslar buzun üstündə daha da güclənirdi. 14-cü dəqəqədə partlayış baş verdi. Kiçik bir qığılcım komandalar arasında davaya çevrildi. Nə hakimlər nə də komanda təmsilçiləri polis müdaxiləsi olmadan hokkeyçiləri sakitləşdirə bilmirdilər. Hətta arenada işıqları belə söndürdülər. Bu da qalmaqala çox zəif kömək etdi.

Döyüş o vaxt bitdi ki, oyunçular artıq bir-birini döyməyə gücləri yox idi. Təşkilatçıların qərarı ildırımsürətli kimi oldu. Komandalara soyunub-geyinmə otağında yarım saat vaxt verdilər ki, əşyalarını toplayıb konvoylarla birlikdə hoteli tərk etsinlər.

"Toronto" klubunun sahibi öz maddi vəsaitindən milli komandaya qızıl medallar hazırlamışdı. Lakin hər iki yığma komanda çempionatdan uzaqlaşdırıldı. Kanadalılar əmin idilər ki, SSRİ-in məqsədi nəyin bahasına olursa-olsun onların çempionluğuna mane olmaq idi.

Beynəlxalq Hokkey Federasiyası matçdan sonra bütün hokkeyçiləri 18 ay, komanda məşqçilərini isə 3 il oyunlardan kənarlaşdırdı.

Diskvalifikasiyadan sonra vaxtı altı ay azaltdılar. 1988-ci ildə hadisənin bir çox iştirakçıları yenidən bir araya gəldilər. Moskvada keçirilən dünya çempionatında qızıl medalı Kanada qazandı. Sovet hokkeyçiləri isə gümüş medala sahib oldular.

## "Tur de Frans"ın iki iştirakçısı tarixə düşüb

Bu əfsanəvi şəkil 1927-ci ildə çəkilmiş və "An İntimate Portrait of the Tour de France" kitabında dərc edilmişdi.

Şəkildə iki belçikalı velosipedçi Jülien Verbeks və Moris Heldhol "Tur de Frans"da yarışan zaman siqaret çəkiblər. O zamanlar papiros çəkmək dözümlü olmağa dəstək olurmuş kimi hesab edilirdi.

O illərdə papiros çəkmək idmançılara ikinci nəfəs verir və bu idman növündə dəstək verici olması kimi bir fikir mövcud idi. Hazırda bu şəkil o qədər məşhurdur ki, hətta internet vasitəsi ilə belçikalı velosipedçilərin şəkilləri əks olunmuş köynək, çanta və telefon üzlükləri almaq olar.



## Fırıldaqçı qardaşların hiyləsi obyektivdən yayınmadı







1999-cu ildə Pitermaritsburq (CAR) ultramarafonçularından 89 km məsafəni qaçaraq, finişi keçmək tələb olunurdu. Pul mükafatı ilk onluq üçün nəzərdə tutulmuşdu.

Cənubi Afrikada iki qardaş 89 km məsafəni növbə ilə qaçaraq ultramarafon təşkilatçılarını aldatmaq istəyiblər. Fırıldaqçıları fotoqraf ifşa edib. Hər kəs adi marafonu keçmək gücündə deyildi.

21 yaşlı Serxio Montsonnerq kasıb ailədə doğulmuşdu. Ona görə də o, yaxşı qazanc müjdəsini böyük həvəslə qəbul etdi. Lakin ilk onluğa necə düşmək olar ki, əgər sən heç vaxt marafonda olmamısansa? Serxionun ağlına həmin vaxt "dahiyanə" fikir gəldi. O, qardaşı ilə birlikdə, lakin növbə ilə qaçacaqdı. Qardaşlar bir-birinə iki damcı su kimi bənzəyirdilər.

Bəs necə etmək olar ki, bu əvəzetməni heç kim hiss etməsin? Serxio bu haqda belə düşünmüşdü. Məsafəarası qoyulmuş ayaqyolularda bir-birimizi əvəz edəcəyik. Qardaşlardan biri qaçır, digəri isə özünü taksi ilə lazım olan ayaqyoluna çatdırır. Orada üstünü dəyişir, biri qaçır, digəri isə aftomobilə minir. Yüksək sürəti yalnız belə nəzarətdə saxlayıb və hər zaman lider olmaq olardı.

Hər şey ideal formada keçdi. Qardaşlar təcrübəli idmançılar deyildi. Lakin doqquzuncu yeri uğurla başa vurdular. Təşəbbüskar fırıldaqçı Serxio Motsonenq finişi keçdi. Ona xatirə medalı və min dollar pul mükafatı verdilər. Yalanın üstü təsadüfən açıldı. Yerli qəzetin müxbiri ultramarafondan çəkdiyi şəkilləri nəzərdən keçirərkən, maraqlı bir detalın üstünü açır. 13018 nömrəli iştirakçının saatının gah sağ, gah da sol qolunda olması diqqətini çəkir. Hətta saatın müxtəlif rəngli olduğunu da görür.

Təşkilatçılar Serxionu açıqlama vermək üçün çağırırlar. O, hər şeyi boynuna alır. Bununla da qardaşları 10 il müddətinə idmandan uzaqlaşdırırlar.

## Şəkil necə xatirəyə çevrildi?

İngiltərəli hücumçu Tom Finni 2004-cü il iyulun 31-də "The Splash" (Sprey) xatirə abidələr firmasını açdı.

1956-cı ildə "Preston Nort End" və "Çelsi" qarşılaşmasında çəkilmiş fotoşəkildən ilhamlanaraq, hadisələr heykələ çevrilmişdi. Şəkildə Fenni "Çelsi"nin müdafiəçisindən effektiv uzaqlaşarkən, çuxurdan sıçrayan su kütləsi əks olunurdu. Bu sanki fəvvarəni əks etdirirdi.

Finni bu barədə deyirdi: "Həmin matçın gedişi zaman güclü yağış başladı. Oyunu təxirə sala bilərdilər. Çünki qazonun üstündə su hövzələri yaranmışdı. Mən müdafiəçini aldadıb keçmək istədim, lakin top düz su çuxuruna düşdü. Bu fantastik bir fotoya çevrilmiş görüntü, ilin ən yaxşı idman şəkili hesab edildi. Abidə həmin görüntüləri əks etdirirdi."

Qeyd edək ki, Tom Finni klubun əfsanəsidir. O, bütün həyatını komandasına həsr edib. T.Finni 473 matçda, 210 qolun müəllifi olub. Finni İngiltərə yığmasında 75 görüşdə 29 qol vurub. Bu da milli komandanın tarixində doqquzuncu nəticə idi.

Belə ki, Finni Krallığın ordusunda üç il tankçı kimi xidmət göstərmişdi. O, Misir döyüşlərində iştirak etmiş və bütün İtaliyan kompaniyalarını keçmişdi. 1998-ci ildə Tom Finni



Britaniya futbolu qarşısında göstərdiyi xidmətlərinə görə "Cəngavər" titulu ilə mükafatlandırılmışdı.

*Hazırladı:*
*Anar Əhmədov*

## Qrossmeysterimiz bu dəfə Berlinə yollanacaq

Martın 21-də Almaniyanın Berlin şəhərində şahmat üzrə FIDE Qran-Pri seriyasının üçüncü mərhələsinə start veriləcək. 16 şahmatçının iştirak edəcəyi yarışda Azərbaycan qrosmeysteri Şəhriyar Məmmədyarov da mübarizə aparacaq. Təmsilçimiz Leyner Dominqes (ABŞ), rusiyalı Daniil Dubov, almaniyalı Vinsent Keymerin yer aldığı B qrupunda yarışacaq.

Yarışın əsasnaməsinə görə, seriyada ümumilikdə 24 idmançı iştirak edir. Hər bir şahmatçı seriyanın maksimum iki turnirində oynaya bilər. Şəhriyar Məmmədyarov bundan əvvəl Belqradda keçirilmiş FIDE Qran-Pri seriyasının ikinci mərhələsində iştirak edib.

Oyunçular hər turnirin nəticəsinə görə Qran-Pri xalları qazanacaqlar. Oynadıqları iki turnirdə ən çox xal yığan iki şahmatçı 2022-ci il namizədlər turnirinə vəsiqə qazanacaq.

## *Yerli media nümayəndələrinin akkreditasiyası prosesinə start verilib*

Formula 1 Azərbaycan Qran-Prisinə yerli media nümayəndələrinin akkreditasiyası prosesinə start verilib. Qeydiyyat prosesi aprelin 14-dək davam edəcək.

Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin (BŞH) mətbuat xidmətindən bildiriblər ki, iyunun 10-12-də keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisi də daxil olmaqla 2022-ci il üzrə dünya çempionatında yer alan hər bir yarış üçün media nümayəndələrinin akkreditasiyası Beynəlxalq Avtomobil Federasiyası (FIA) və “Formula One Management” (FOM) şirkəti tərəfindən həyata keçirilir. Yerli media nümayəndələrinin yarışa qeydiyyatı prosesi BŞH tərəfindən icra olunur.

Qeydiyyatdan keçmək istəyən jurnalistlər BŞH-nin rəsmi akkreditasiya səhifəsinə daxil olaraq, müvafiq formanı doldurmalı və tələb olunan sənədləri sistemə yüklədikdən sonra onlayn qaydada müraciət etməlidirlər. Natamam və ya vaxtından gec göndərilmiş müraciət formaları nəzərə alınmayacaq.

Yerli jurnalistlərdən ölkə daxilindəki COVID-19 qaydalarına riayət olunması tələb ediləcək. 2022-ci ildəki yarışlara COVID-19 virusuna qarşı iki doza vaksin vurdurmuş və peyvənd sertifikatının etibarlılıq müddəti bitməmiş yerli jurnalistlər akkreditasiyadan keçə biləcəklər. Peyvəndin ikinci dozasının üzərindən altı aydan çox keçmiş media nümayəndələrindən “buster” doza vurdurmaları xahiş edilir.



## *Millilərimizin rəqibləri müəyyənləşdi*

Azərbaycanın kişi və qadınlardan ibarət voleybol yığmalarının 2023-cü ildə keçiriləcək Avropa çempionatının seçmə mərhələsindəki rəqibləri müəyyənləşib. Kişilərdən ibarət yığmamız A qrupunda Danimarka və Türkiyə seçmələri ilə mübarizə aparacaq.

Yarışda 26 komanda 7 qrupa bölünüb. Qrupun ən güclüləri və 5 ən yaxşı ikinci yerin sahibi final mərhələsində iştirak edəcək.

Qadınlardan ibarət millimiz isə AVRO-2023-ün seçmə mərhələsində Sloveniya, Gürcüstan və Avstriya yığmaları ilə birgə D qrupunda yer alacaq. Qadınların yarışında 24 komanda 6 qrupa bölünüb. Qrupda birinci və ikinci olacaq komandalar final mərhələsinə yüksələcək.

Avropa çempionatlarında həlledici mərhələyə ev sahibliyi edəcək ölkələr hələlik açıqlanmayıb.

Qeyd edək ki, qitə çempionatında seçmə mərhələnin görüşləri avqust - sentyabrda olacaq.

## Mingəçevirdə həndbol məşqçiləri üçün seminar keçirilib

Azərbaycan Həndbol Federasiyasının nümayəndələri Mingəçevirdə seminar keçiblər. Beynəlxalq dərəcəli deleqat İsgəndər Əsgərov, beynəlxalq dərəcəli hakim Ernest Ağakişi, Pro kateqoriyalı məşqçi Fuad Yangildin tərəfindən Mingəçevirdə keçirilən seminarda Göygöl, Qazax, Ağstafa rayonları, Gəncə və Mingəçevir şəhərlərindən olan məşqçilər iştirak ediblər.

Əvvəlcə regionlarda həndbolun durumu, bu sahədəki problemlər və yeni qaydalarla bağlı məlumat verilib.



Həndbol məşqçiləri ilə ətraflı müzakirələrdən sonra onlara sertifikatlar təqdim edilib.

Seminarın sonunda Pro kateqoriyalı məşqçi Fuad Yangildin tərəfindən yeniyetmə həndbolçular üçün nümunəvi məşq keçirilib.

## Kikboksçumuz WJF kəmərinə sahib çıxdı

Azərbaycan milli komandasının kikboksçusu Məhəmməd İmanov WJF döyüş təşkilatının kəmərini qazanıb. Azərbaycan Kikboksinq Federasiyasından verilən məlumata görə, 57 kq çəki dərəcəsində çıxış edən idmançımız Gürcüstanın paytaxtı Tbilisidə keçirilən yarışda yerli ölkəni təmsil edən erməni əsilli Qela Xoceliani ilə üzüzə gəlib.

Rəqibini məğlub edən Məhəmməd İmanov kəmərin sahibi olub.

Qeyd edək ki, M.İmanov gənclər arasında WAKO versiya üzrə Avropa birinciliyinin qalibi, dünya çempionatının gümüş medalçısıdır.

# FUTBOL



## Azərbaycan Premyer Liqası: “Neftçi”dən əzmkar qələbə



Futbol üzrə Azərbaycan Premyer Liqasında XIX turun oyunları keçirilib. Günün ilk matçında “Səbail” klubu “Keşlə”ni qəbul edib. Qarşılaşma qonaqların 3:0 hesablı qələbəsi ilə yekunlaşıb. “Keşlə”nin qollarını 17-ci dəqiqədə Pərviz Azadov, 21-ci dəqiqədə Rəhman Hacıyev, 90+5-ci dəqiqədə isə Turan Vəlizadə vurub. “Dənizçilər”in əsas futbolçularından hesab edilən Yurgen Qoca zədələndiyi üçün oyunu sonadək davam edə bilməyib. 30 yaşlı müdafiəçi epizodların birində rəqib qapıçı Stanislav Namaşko ilə toqquşub. Albaniyalı oyunçu tibbi müayinədən sonra oyuna qayıtsa da, sonradan görüşü davam etdirə bilməyib və Məhəmməd Mirzəbəyovla əvəzlənib.

Bu nəticədən sonra xallarının sayını 18-ə çatdıran “Keşlə” 6-cı sırada qalıb. “Səbail” isə 11 xalla sonuncu - 8-ci pillədə qərarlaşıb.

Turun növbəti görüşündə “Sabah” və “Qarabağ” komandaları üz-üzə gəlib. “Bank Respublika Arena”da keçirilən oyunu baş hakim Fərid Hacıyev idarə edib.

Görüş qonaqların qələbəsi ilə yekunlaşıb - 0:1. Yeganə topu oyunun 30-cu dəqiqəsində Abdullah Zubir vurub.

Bu görüşdən sonra Ağdam təmsilçisi xallarının sayını 43-ə çatdıraraq liderliyini bir qədər də möhkəmləndirib. Sabah isə 23 xalla beşinci pillədə yer alır.

Turun növbəti oyunu “Bakcell Arenada” təşkil olunub. Oyunda “Neftçi” klubu “Sumqayıt”ı qəbul edib. Qarşılaşma meydan sahiblərinin qələbəsi ilə yekunlaşıb - 2:1. Görüşdə hesabı 17-ci dəqiqədə Emin Mahmudov açıb. “Gənclik şəhəri” təmsilçisi 24-cü dəqiqədə Rəhim Sadıxovun qolu ilə hesabı bərabərləşdirib. Oyunda son nöqtəni də Emin Mahmudov qoyub. Matçın 82-ci dəqiqəsində penaltidən fərqlənən 30 yaşlı yarımmüdafiəçi komandasına qələbə qazandırıb.

Qarşılaşmanın 84-cü dəqiqəsində qonaqların heyətində R.Sadıxov zədələnərək meydanı tərk edib.

Bu nəticədən sonra xallarını 34-ə çatdıran “ağ-qaralar” 3-cü pilləyə yüksəlib. “Sumqayıt” isə 13 xalla yeddincidir.

## PSJ klubunun prezidenti ilə bağlı qərar verildi



Fransanın PSJ klubunun prezidenti Nasser Əl-Xəlaifi ilə bağlı qərar verilib. İspaniyada “Real Madrid”ə 1:3 hesabı ilə uduzduqları UEFA Çempionlar Liqasının 1/8 final mərhələsinin cavab oyunundan dərhal sonra Qətərin paytaxtı Dohaya uçan iş adamı klub rəhbərliyi ilə görüşüb.

Hələlik 49 yaşlı funksionerin vəzifəsində qalacağı bildirilib. Rəhbərlik hesab edir ki, komandanın avrokuboklarda mübarizəni dayandırmasına görə əsas məsuliyyəti Əl-Xəlaifi daşımamalıdır. Çünki klub son illərdə onun rəhbərliyi altında əhəmiyyətli irəliləyişlər əldə edib.

Qeyd edək ki, Nasser Əl-Xəlaifi 2011-ci ildən PSJ-nin prezidenti vəzifəsini tutur.

## Futbol hakimləri üçün məşq keçirilib

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) dərs demək üçün Bakıda olan UEFA-nın elit-hakimlər komitəsinin baş fizioterapevti Roman Jahoda Azərbaycan Premyer Liqasının, Birinci Divizionun oyunlarına təyinat alan və inkişaf qrupuna aid bəzi hakimlər üçün məşq keçib.

Budəfəki məşq ötən ilin noyabrında “Complex Core” şirkəti tərəfindən həyata keçirilən laktat testinin, idman hərəkəti sınaqlarının davamı olaraq təşkil olunub.

Təlim mobillik, çeviklik və sabitlik sahələrini, hər bir idmançı üçün xüsusən də hakimlər üçün çox vacib olan bütün sahələri əhatə edib.

AFFA-nın Hakimlər Komitəsinin sədri Fritz Stuçlikin rəhbərlik etdiyi məşq zamanı iştirakçılar müxtəlif təlimlər yerinə yetirib, lazımi konsentrasiya və təkmilləşdirmə məşqləri ediblər.

## Dağ Velosipedi Parkında mövsümün açılış yarışı keçirilib

Azərbaycan Velosiped İdmanı Federasiyasının 2022-ci il üçün təsdiq edilmiş vahid təqvim planına əsasən, Dağ Velosipedi Parkında MTB üzrə mövsümün açılış yarışı keçirilib. Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, açıq xarakterli yarışda 30-dan artıq həvəskar və peşəkar velosipedçi iştirak edib. Enişli-yoxuşlu və sərt döngələrlə zəngin, uzunluğu 4 kilometrə bərabər olan marşrut boyunca yeniyetmələr 2, böyüklər isə 3 dairə vurublar. On iki kilometr məsafəni hamıdan tez qət edən Əmral Abduləzizli böyüklər arasında birinci yerə layiq görülüb. Nəcəf Bağırov ikinci, Mirkazım Seyidəliyev isə üçüncü olublar.

Yeniyetmələr arasında isə Maksim Polikarpov bütün rəqiblərindən daha yaxşı çıxış edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Tural Axundlu və Çingizxan Məmmədli finiş xəttinə 2-ci və 3-cü gəliblər.

Qaliblər medal, diplom və qiymətli hədiyyələrlə təltif ediliblər.





Dünya-idmanı

# Serbiyalı tennisçiyə növbəti yarış qadağası

Serbiyalı tennisçi Novak Çoković ABŞ-ın İndian-Uells və Mayami şəhərlərindəki ATP (Peşəkar Tennisçilər Assosiasiyası) turnirlərindən kənarda qalıb. Buna 35 yaşlı raket ustasının ABŞ-a giriş icazəsi ala bilməməsi səbəb olub. Dünyanın iki nömrəli tennisçisi iştirakçılar siyahısında yer almasına baxmayaraq, yarışdan kənarda qaldığını bildirib. Novak tayında çıxışı mümkünsüz olub. O, yarış iştirakçılarına uğurlar arzulayıb. İndian-Uells turniri martın 21-dək davam edəcək. Bu yarışdan sonra start götürəcək Mayamidəki yarış isə aprelin 3-də yekunlaşacaq.

Qeyd edək ki, Novak Çokoviç daha əvvəl "Australian Open"də də iştirak edə bilməyib. Tennisçi turnirdə iştirak etmək üçün Avstraliyaya getsə də,



Cokoviçin sözlərinə görə, ABŞ-ın Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzi ölkədə qaydaların dəyişmədiyini açıqladıqdan sonra okeanın o yanvarın 5-də vizası ləğv edilib. Buna təcrübəli tennisçinin koronavirusa qarşı peyvənddən imtinası səbəb olub.

# Atletika yarışları Belarusdan alınır

Belarusda atletika üzrə beynəlxalq yarışların keçirilməsi qadağan olunub. Bu barədə Ümumdünya Atletikasının (World Athletics) prezidenti Sebastyan Ko açıqlama verib. O bildirib ki, sanksiyalar dünya və Avropa yarışlarına şamil edilir: "Buraya konqres iclaslarında iştirak və səsvermə hüququndan məhrumetmə də daxildir. Beynəlxalq turnirlər zamanı Belarusdan olan rəsmi şəxslərə də akkreditasiya verilməyəcək".

Qeyd edək ki, Ümumdünya Atletikası daha əvvəl Rusiya və Belarus idmançılarını öz bayrağı altında keçirilən yarışlardan kənarlaşdırıb.





### Üfüqi

**1.** Novruz oyunlarından biri. **4.** Yaz fəsli el arasında bu cür adlanır. **6.** Novruz şirniyyatı. **7.** İlaxır çərşənbə. **10.** Şuşalı pəhləvan. **12.** Novruz oyunlarından biri. **13.** Pəhləvanların güləşdiyi meydan.

### Şaquli

**2.** Çövkən oyunu Avropada bu cür adlanır. **3.** Xonçanın atributlarından biri, Novruz oyunu. **5.** Dünya şöhrətli Azərbaycan pəhləvanı….Süleyman. **8.** ..falı. **9.** Azərbaycanın el pəhləvanı ...Rzaqulu. **10.** Milli bayramlarımızdan biri. **11**. Novruz oyunlarından biri ...-pula. **12.** Novruz tamaşası. **14.** Milli idman növlərimizdən biri. **15.** Novruz oyunlarından biri.

# Kataloniyalılardan əsrin rekordu



"Barselona" klubu İspaniya La Liqasında XXI əsrin rekorduna imza atıb. Kataloniya təmsilçisi buna "Osasuna"nı 4:0 hesabı ilə məğlub etdikləri XXVIII tur oyununda nail olub. Komandanın 75-ci dəqiqədə sonuncu qolunu Riki Puç vurub. Beləliklə, "Barselona"da cari mövsüm 22 fərqli oyunçu rəqib qapılarına yol tapıb. 2019/2020 mövsümündə "Real Madrid"in 21 futbolçusu fərqlənməyi bacarıb.

Qeyd edək ki, "Barselona" 27 matçdan sonra 51 xalla üçüncü pillədə qərarlaşıb. Kataloniyalılar lider "Real Madrid"dən 12 xal az toplayıb. "Barselona" növbəti turda - martın 20-də "kral klubu"nun qonağı olacaq.

# Baş məşqçi gecələr yata bilmir

PSJ-nin baş məşqçisi Maurisio Poçettino növbəti dəfə Çempionlar Liqasının 1/8 final mərhələsində "Real"a uduzduqları cavab matçı (1:3) haqqında danışıb.

"Real"a məğlubiyyətin şoku məni gecələr yatmağa qoymur. Xatırlayanda çox aqressiv, qəzəbli oluram. Mənim karyeramdakı ən çətin oyunlardan biri idi. Ancaq bu, çatışmazlıqlarımızı düzəldə bilməyəcəyimiz demək deyil. PSJ futbol oynamağa davam edəcək", - deyə argentinalı mütəxəssis bildirib.

Qeyd edək ki, PSJ ilk oyunda "Real"a qalib gəlsə də (1:0), cavab görüşündə uduzduğu (1:3) üçün turnirlə vidalaşıb.

# "Zadəganlar" iflasa doğru gedir

Məşhur avtomobil brendi "Hyundai" İngiltərənin "Çelsi" klubu ilə sponsorluq müqaviləsini pozub. Buna Böyük Britaniya hökumətinin London təmsilçisinə tətbiq etdiyi sanksiyalar səbəb olub.

Bildirilib ki, "zadəganlar"la marketinq və kommunikasiya əməkdaşlığı növbəti xəbərdarlığadək dayandırılıb.

Qeyd edək ki, daha əvvəl İngiltərə Premyer Liqasının rəhbərliyi "Çelsi"nin sahibi Roman Abramoviçi klubun idarəçiliyindən kənarlaşdırıb.


## olimpnews.az - sizin saytınız





Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.



E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19